*Z.Əbilova. Nemətullah Naxçıvani Səbuhi İbrahimovun tədqiqatlarında // Əlyazmalar yanmır, 2020, № 1 (10), s. 53-58.*

UOT: 2-5

**Zəkiyyə Əbilova**
*fəlsəfə üzrə elmlər doktoru, dosent*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş. İstiqlaliyyat küç.26*
*e-mail: zekiyye.abilova@mail.ru*

# NEMƏTULLAH NAXÇIVANİ SƏBUHİ İBRAHİMOVUN TƏDQİQATLARINDA

**Xülasə**

Bu məqalədə fəlsəfə üzrə fəlsəfə doktoru Səbuhi İbrahimovun XV əsrin görkəmli nümayəndəsi Baba Nemətullah Naxçıvaninin həyatı və elmi fəaliyyəti ilə bağlı araşdırmalarından bəhs olunur. Belə ki, bu sahədə uzun müddət çalışan S.İbrahimov alimin əsərlərinin əlyazma nüsxələrini müəyyənləşdirərək elm aləminə təqdim etmişdir. Həmçinin o, Naxçıvaninin dini-fəlsəfi görüşlərini müqayısəli şəkildə araşdırmağa nail olmuşdur.

***Açar sözlər:*** *Nemətullah Naxçıvani, şəxsiyyət, təsəvvüf, təfsir, sülalə, əlyazma.*

**Giriş:**

*Müxtəlif dövrlərdə xalqımızın ayrı-ayrı elm sahələrində yaratmış olduğu əsərlər əsrlər keçdikdən sonra belə başəriyyəti mənəvi sərvətlərimiz, inam və əqidəmiz, qəhrəmanlıq salnaməmizlə tanış edir. Lakin xalqımızın bu böyük zaman hüdudunda yaratdığı elmi abidələr və yetişdirdiyi bütün şəxsiyyətlər bizə eyni dərəcədə məlum deyildir. Onların hər birinin üzə çıxarılması və elmi tədqiqatlara cəlb olunması bu gün Azərbaycan elminin qarşısında duran prioritet məsələlərdəndir.*

Tədqiqata cəlb olunmağa layiq olan Azərbaycan alimlərindən biri də Baba Nemətullah Naxçıvanidir (1452 / 1514) Bu görkəmli alimin özü və əsərləri barədə "Kəşfüz-zunun" (I 189; II1292, 2028); "Daneşməndani-Azərbaycan" (s. 61); "Hədiyyətül-arifin" (II, 497); "Mu`cəmul-müfəssirin" (II, 703); "İslam Ansiklopedisi" TDV (33. 132); "Türkiye Qəzetesi İslam Alimleri Ansiklopedisi" (14. s. 292) və s. kimi kataloqlarda məlumat verilir. Bir sıra islam araşdırmaçıları, o cümlədən, Əbdülqədir Turan (Baba Nemətullah Naxçıvani və əl-Fəvatihül-ilahiyyə vəl-məfatihül-qeybiyyə adlı təfsiri); Qasım Küfralı (Molla ilahi və ondan sonrakı Nəqişbəndiyyə mühiti); Yaşar Qurd (Naxçıvani və təsəvvüfi təsviri); Nicat Tosun və Bəhaəddin Nəqişbənd (Həyatı, görüşləri, təriqəti) kimi alimlər N.Naxçıvaninin həyat və yaradıcılığına müraciət edərək sanballı əsərlər ərsəyə gətirmişlər. Baba Naxçıvani ilə bağlı tədqiqat aparmış alimlərdən biri də Türkiyə islamşünası Yaşar Kurt olmuşdur. Yaşar Kurt alimlə bağlı yazır: «"Şeyx əlvan", "Əlvan əl-Ağşəhri", "Baba Nemətullah", "Nemətullah Sultan" və "Baba Nemət" kimi ad və ləqəblərlə tanınmışdır. …Nemətullah təhsilini Ağqoyunlulardan Uzun Həsən və oğlu Sultan Yaqub zamanında bir elm diyarı sayılan Naxçıvanda və təfsirini yazdığı Təbrizdə almışdır. ... Müəllifi məlum olmayan bir risalədə adı Naxışbəndi sülaləsinin tanınmış nümayəndələrindən

Übeydullah Əhrarın müridləri sırasında çəkilir» ... (7, 132). Buradan bir daha məlum olur ki, Baba Naxçıvani nəqışbəndilərin nüfuzlu müridlərindən olub, bir çox tələbələr yetişdirmişdir. Təsadüfi deyildir ki, 1584-cü ildə III Murad Nemətullah Naxçıvani adına bir zaviyə tikdirmiş və burada vəqf təsis edilmişdir (7, 132). Taşköprüzadənin verdiyi məlumata görə, alimin haqqında az məlumat olmasına səbəb onun fəqirliyi zənginlikdən üstün tutması olmuşdur. O, şan və şöhrətdən qaçaraq özünü gizlətməyə çalışmışdır. Nemətullah əsərlərində rüşvət qarşılığında insanlara yanlış fətva verən fəqihləri ikiüzlülükdə ittiham etmiş, müsəlmanları batil istəklərə sövq edən, haramları halal kimi təqdim edən saxta şeyxləri lənətləmişdir (7, 132-133).

Türkiyə vətəndaşı Sadıksoy Abdullah İsmayıl oğlu isə "Nemətullah bin Mahmud Naxçıvaninin təfsir metodu" mövzusunda fəlsəfə doktoru dissertasiyası yazaraq 2005-ci ildə AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda müvəffəqiyyətlə müdafiə etmişdir.

Milli-mənəvi dəyərlərimizi üzə çıxarmaq baxımından müasir Azərbaycan islamşünaslarının üzərinə də az məsuliyyət düşmür. Bu sahədə artıq bir sıra nəaliyyətlər əldə edilmişdir. Belə ki, müstəqillik illərində azərbaycanlı mütəfəkkirlər otuzdan artıq elmi tədqiqata cəlb olunaraq onların həyat və yaradıcılıqları görkəmli alimlərimizin rəhbərliyi altında araşdırılaraq elm aləminə təqdim olunmuşdur. Belə tədqiqat işlərindən biri də fəlsəfə üzrə fəlsəfə doktoru Səbuhi İbrahimovun XV əsr alimi Nemətullah Naxçıvani yaradıcılığına həsr etdiyi araşdırmalarıdır.

XV əsrin ortalarında (təxminən, 1452-ci il) Naxçıvanda dünyaya gəlmiş Baba Nemətullah Naxçıvani dövrünün tanınmış şəxsiyyətlərindən olmuşdur. Onu da qeyd etmək yerinə düşərdi ki, Baba Nemətullahın atası Şeyx Mahmud Naxçıvani də dövrünün tanınmış din xadimlərindən olmuşdur. Məlum olduğu kimi, XV-XVI əsrlər Azərbaycan xalqının siyasi-iqtisadi və mədəni həyatında yeni yüksəliş dövrüdür. Bu əsrlərdə xarici işğalçılara qarşı mübarizənin qüvvətlənməsi, mərkəzləşmiş dövlət uğrunda mübarizə ölkənin siyasi həyatında mütərəqqi bir hadisə idi. Bu vəziyyət iqtisadi, mədəni və ədəbi həyata da müsbət təsir göstərdi (1, 293). Təsadüfi deyildir ki, həmin dövrdə Cəlaləddin Dəvvani (-1502), Fəzlullahi ibn Ruzbəhan, Məhəmməd ibn Musa Talış və başqaları "Əxlaqi-cəlali", "Tarixi-aləm-arayi-Bayindiri"yə, "Şərhu-hikmətil-" kimi elmi əsərləri ilə məşhur olmuşlar (1, 299). Həmin dövrdə Azərbaycanda sufilik fəlsəfəsi də inkişaf etməkdə idi ki, bu inkişaf özünü Şah Qasım Ənvar, Şəms Məğribi, Seyyid Yəhya Bakuvi, Yusif Miskuri və digər mütəfəkkirlərin yaradıcılığında geniş intişar tapırdı. Baba Nemətullah Naxçıvani belə bir dövrdə dünyaya gəlmiş, ətrafındakı alimlərdən elm əxz etmiş, sonralar bir şox həmvətənləri kimi elm dalınca digər şəhər və ölkələrə üz tutmuşdur. Məhz belə bir alimin əsərlərini araşdıran Səbuhi İbrahimov Nemətullah Naxçıvaninin həyatı barədə yığcam məlumat verərək əsas fikrini onun yaradıcılığına yönəltmişdir. Bu məqsədlə Səbuhi İbrahimov əsasən Şərq alimlərinin əsərləri mühafizə olunan dünya kitabxanalrının bildiri kitablarına müraciət edərək bir çox məlumat əldə etməyə nail olmuşdur. Tədqiqatçı alimin əsərlərinin əsasən Türkiyə kitabxanalarında mühafizə olunan əlyazma nüsxələri üzərində araşdırmalar aparmışdır. O, "Baba Nemətullah Naxçıvaninin Türkiyə kitabxanalarında saxlanılan əlyazma əsərləri" adlı məqaləsində qardaş ölkənin Süleymaniyyə, Topqapı Sarayı, Millət Kitabxanası, Nuri Osmaniyyə kimi kitabxanalarında on iki əsərini müəyyənləşdirdiyini bildirir. Bunlar "əl-Fəvatihül-ilahiyyə vəl-məfatihül-qeybiyyə əl-müzihatü lil-kəlimil-Quraniyə vəl-hükəmil-Fürqaniyyə", "Hidayətül-ixvan", "Tərcümeyi-nəqşi-fusus", "Risaleyi-məcmueyi-lətaif", "İstilahatüs-sufiyyə", "Hidayət", "Risaleyi-təhqiqat", Risaleyi-Niqat", "Risaleyi-Vücudi-Mütləq", "Risaleyi-əsilə vəl-əcvibə", "Risaleyi-zikriyyə"dir ki, məqalədə onların hər birinin məzmunu ilə bağlı açıqlama verir.

XV əsr fəlsəfi fikrinin inkişafı üçün keçmiş dövrlərdə yazılmış sufi panteist istiqamətli əsərlərin Azərbaycan dilinə tərümə olunmasının böyük əhəmiyyəti var idi. Şirazi təxəllüslü bir şair Mahmud Şəbüstərinin "Gülşəni-raz" əsərini Azərbaycan dilinə çevirmişdi. Bu dövrdə Azərbaycan mütəfəkkirlərindən Seyid Yəhya Xəlvəti Şirvani, Şəmsəddin Məhəmməd ibn Əli Lahici, Kəmaləddin Hüseyn Ərdəbili və başqaları bu əsərə şərhlər yazmışlar. (2, 167). Naxçı-

vani də əsərə müraciət edərək ona özünəməxsus şərh yazmış və "Şərhu Gülşəni-raz" başlıqlı əsər Süleymaniyyə Kitabxanasının Pertev Paşa bölməsində mühafizə olunmaqdadır. Əsərdə təsəvvüfün izahı verilir, sufilərin irfan və idrak dərəcələri ilə bağlı zəruriyyətlər açıqlanır (6, 71-73).

S.İbrahimovun Nemətullah Naxçıvani ilə bağlı "Dövlət və din" toplusunda dərc olunmuş digər bir məqaləsi "Baba Nemətullah Naxçıvani və fəlsəfi görüşləri" adlanır. Müəllif bir çox mənbələrə müraciət edərək alimin həyat və yatadıcılığı ilə bağlı mümkün qədər məlumat əldə edə bilmişdir. Alimin fəlsəfi düşüncələrinə gəlincə, tədqiqatçı yazır:" Naxçıvaninin fəlsəfi düşüncələrində ilk növbədə onun Vacibul-Vücud (Vacib Varlıq) haqqındakı təhlil və mülahizələri açıq şəkildə nəzərə çarpır. Varlıq (vücud) Allahın zehnin xaricində var olduğunu və yoxluğunun düşünülə bilməyəcəyini ifadə edən sifətlərindən biridir. Vacibul-Vücud isə Allahın mövcudluğunun zəruri olduğunu ifadə edir: "Allahın varlığı Özündəndir. Onun xaricindəki varlıqların mövcudiyyəti isə özləri xaricindəndir". Allahın substansiya və atributlarını şərh etməyə çalışan müəllif Onun icəbi və səlbi sifətlərini təqdim edir. Antik dövr filosoflarından iqtibaslar gətirən S.İbrahimov yazır:"Heraklit və Anaksiman da eyni fikri mənimsəyərək varlığın əzəli olduğunu müdafiə edirlər. Platon isə yoxluq anlayışı üzərində dayanır. Ona görə, yoxluq mütləq olmayan nisbi anlayışdır. Varlıq termini dəlil və isbata gərək olmadan zehin tərəfindən bir anda qavranılır. Varlığın tam başa düşülməsi üçün filosoflar onu müxtəlif dərəcələrə və hissələrə ayıraraq araşdırmışlar... İbn Sinaya gəlincə, düşüncə ilə varlıq arasındakı əlaqədən yola çıxaraq bu anlayışı düşüncədə varlıq, dildə varlıq, xarici dünyada varlıq və yazıda varlıq şəklində dörd dərəcədə dəyərləndirdiyini" qeyd edir. Tədqiqatçı son olaraq islam filosoflarının qəbul etdiyi, vəhdəti-vücud fəlsəfəsini əsaslandıran İbn Ərəbinin "zatı etibarilə var olan və varlığı zəruri olan yeganə varlıq Allahdır. Allahın varlığı aləmə nisbətlə bir ayna kimidir; duyulur və başa düşülür. Bütün varlıq o aynada görünür" fikrini təsdiqləyir.

S.İbrahimov "Baba Nemətullah Naxçıvaninin yaradıcılıq görüşlərində filosof və kəlamçıların fikirlərinə tənqidi yanaşma səbəbləri" ünvanlı məqaləsində alimin islam aləmindəki bir sıra məsələlərə münasibətini ön plana çəkmişdir. Belə ki, Naxçıvaniyə görə, filosoflar və kəlamçılar "Vacibul-Vücud" olan Allahın görülməsi və duyulmasını inkar edirlər. O, filosof və kəlamçıların bu fikirlərini tənqid edir: "Nə qəribədir ki, onlar hər şeyin xaricində var olan, bütün varlıqları var edən, onların hər birinin zəruri və iradəli yaradıcısı olan bir varlığı qəbul edir, amma onun dünyada mütləq şəkildə görülməyəcəyini və hiss olunmayacağını müdafiə edirlər. Halbuki görülmək və duyulmaq xaricdəki varlığın mütləq xüsusiyyətlərindəndir. Bu varlıq (Yaradıcı) xarici varlıqların ən mükəmməli, ən zahir və açıq olanıdır. Çünki onun bədən xaricində bir varlığı vardır. Və varlığı da müstəqildir". Naxçıvani Allahın görülməyəcəyini müdafiə edənlərin məlumatlarının kafi olmadığını bildirir və "Onların bildiyi elə bu qədərdir..." qənaətinə gəlir (4, 52).

Tədqiqatçı qeyd edir ki, Baba Nemətullah Naxçıvani hansı ruhun daha əvvəl yaradıldığı mövzusunda Həzrət Adəmin cəsəd olaraq əvvəl, amma Həzrət Məhəmməd əleyhis-salamın ruh olaraq əvvəl yaradıldığını bəyan edir. Məlumdur ki, Həzrət Məhəmməd (s) dünyaya gəlməmişdən onun nuru yaranmış və yer üzündə idi. Sonradan bu nur iki hissəyə bölünərək yarısı Peyğəmbərdə (s) qalır, yarısı isə Hz. Əliyə (ə) keçir. Naxçıvaninin nəfs haqqında fikirlərinə gəlincə isə, "nəfsin insanın yaradılışında ona yerləşdirilən və sağlamlaşdırılan bir xüsusiyyət olduğunu ifadə edir". Naxçıvani ruh və nəfs haqqında filosofların fikirlərini rədd edir. Ona görə "Ağılı-əvvəl" Rəhmanın adlarının özündə toplandığı küllü aləmdir. "Ağılı- əvvəl"ə "Lövhül-Qəza", "Ümmül- Kitab" adları da verilmişdir. "Nəfsi-külliyyə" isə "Ağılı- əvvəlin" bütün cüzlərini içinə alan küllü bir aləmdir. "Nəfsi-külliyyə"yə "Lövhü-məhfuz" və ya "Kitabi- mübin" də deyilir"(4,53). S.İsmayılov Naxçıvaninin filosof və kəlamçılara yönələn zəif istidlalları və dəlilləri ilə Haqdan uzaqlaşacaqları fikrini çatdırır və belə olan halda çıxış yolunu ancaq Nəbi və Rəsulların, xüsusilə son Peyğəmbərin (s) ətəyinə sarılmaqla Haqqa yaxınlaşa biləcəkləri ehtimalını söyləyir. Nemətullah Naxçıvani son Peyğəmbərin (s) övladının, nəvələrinin, nəvələrinə

qatılanların və onun hidayətiylə hidayətə çatmış olan vəli, arif, valehin (vəcddən ağlını itirənlər) ətəyindən tutmaqla Allaha yaxınlaşmaq ehtimalının önəmli olacağını bildirmişdir.

Səbuhi İbrahimovun Baba Nemətullah Naxçıvani ilə bağlı həcmcə ən böyük tədqiqat işi "Nemətullah Naxçıvani XV əsrin görkəmli təsəvvüf və təfsir alimi" ünvanlı monoqrafiyasıdır. Bir qədər də dəqiq desək, monoqrafiya S.İbrahimovun alimin həyat və yaradıcılığı ilə bağlı buna qədər araşdırdığı və qələmə aldığı tədqiqatlarının bir küll kimi toplandığı və analiz edildiyi mənbədir. Təbii ki,mərkəzdə ilk təsəvvüfi Quran təfsiri olan Nemətullah Naxçıvaninin "əl-Fəvatihül-ilahiyyə vəl-məfatihül-qeybiyyə əl-müzihatü lil-kəlimil-Quraniyə vəl-hükəmil-Fürqaniyyə" əsəri durur. Tədqiqatçı əsərlə bağlı məlumat verərkən yazır: "Təbrizdə1496/7 –ci ildə tamamladığı bu əsər sufi qəlbinə dolan batini məna və işarətlərə görə ayələrin təvil edildiyi təsəvvüfi təsvirlər əsəridir. Bu islam ədəbiyyatında Quranı təsəvvüfi üsulla təfsir edən ilk əsər hesab edilir" (5, 9) .

Elm aləminin işıqlı çırağı hesab edilən, gözəl bir üslubla qələmə alınan əsər eyni zamanda "Quran"ın ilk fəlsəfi təhlili hesab edilir. Elə buna görə də müəllif öz əsərinə "Quranın kəlmə və hikmətlərini açıqlayan qeybin açarı və ilahi fəthi" adını vermişdir. Baba Nemətullah Naxçıvani müqəddəs "Qurani-Kərim"in məqsədini belə açıqlayır: "Haqqı batildən ayırd edən "Quran" haqq əhlinə, haqq yolu açıqlamaq üçün (haqq və həqiqət ilə) xalqa (insanlara) Haqq tərəfindən endirilmişdir. Nə qarşısından nə arxasından onu boşa çıxaracaq bir söz gəlməz. O Rəhman surətində yaradılan insani-kamilin xüsusiyyətlərini ehtiva edir"(5, 33). Bu əsərin Naxçıvaninin öz əli ilə yazdığı avtoqraf nüsxəsinin ikinci cildi Topqapı Sarayı III Əhməd Kitabxanasında saxlanılır".

Fəlsəfənin əsas təməl mövzusu varlıqdır. S. İbrahimov qeyd edir ki, mahiyyət-varlıq əlaqələrinin şərhində filosofları idealist və realist olmaq üzrə iki qrupa ayıra bilərik. Biri- obyektin mahiyyətinin varlığından əvvəl gəldiyini müdafiə edən idealistlərin başında İbn Sina durur. İkinci qrup-realistlərin fikrincə isə, Allahın mahiyyəti ilə varlığını eyni qəbul edirlər və bunların başında Əşari kəlamçıları və İbn Rüşd durur. Aristotelə görə, ontoloji mənada obyektlərin mahiyyəti ilə varlığı bir-birindən ayrıla bilməz (5, 22).

Kəlamçılar fə filosoflar Allah-Təalanı- Vacibül-Vücudu görülən və hiss edilən bir aləmin yaradıcısı olaraq tək qəbul etmişlər. Tədqiqatçının qeyd etdiyi kimi, "Naxçıvani Vəhdəti-Vücud anlayışını qavrayan və düşünən bir alim olduğu üçün başda məşhur təfsiri olmaqla bütün əsərlərində varlıq və vəhdəti-vücud anlayışına" yer vermişdir. "Naxçıvani belə hesab edir ki, kəramət ancaq imamlardan zühur edən fövqəladə haldır və mahiyyət etibarı ilə möcüzədən fərqli deyildir. Möcüzə peyğəmbərlərdən, kəramət tam olaraq ona bağlı olan imamlardan zühur edər. Möcüzə kimi kəramətin də yaradıcısı və həqiqi sahibi Allahdır. Sufilərə gəlincə, onlar kəraməti Allah-Təalanın İmamlara bir ikramı və lütfü olaraq qəbul etmişlər" (5, 28). Naxçıvaniyə görə din surət və həqiqətdir. Dinin üsuluna və füruuna əməl etmək, Allahın kitabında əmr edilmiş, Peyğəmbər (s) Əhli-beytinin varislərinin şəninə açıqlanmış olan ayə və hədislərin şəninə qayğı göstərmək, onları daim dost tutmaq dinin surətidir. Mütədeyyin olanlar, Allahla birlikdə olan azad, təmiz, möhsin kəslər dinin həqiqəti ilə olanlardır.

S.İsmayılovun araşdırmalarından məlum olur ki, Naxçıvani insan amilinə geniş yer ayırmışdır. Bütün yaranmışlardan üstün olan insanlar arasından da seçilmişlər qərar verilmişdir. Bu seçilmişlər Allah ilə insanların arasında vasitədirlər. Təsəvvüfçülərin fikrincə, Allahın vəkili olan insani-kamilə Allah təcəlli edər. Yetkinləşənə qədər öz ətrafını idarə edər. Yetkinləşəndən sonra isə kainatı idarə etməyə məmür edilər. Əlbəttə ki, bunlar sufi nəzəriyyəsinə uyğundur. Adi halda isə bidətdir. İslama görə yerin-göyün yeganə edarəedicisi Allah-Təbərəkə-Təaladır.

Tədqiqatçının fikrincə, insan bədənindəki hər şey dünyada olan bir varlığa təqabil edir. Dünyada nə varsa, insanda da vardır. Varlığın özü də insani-kamildir. Əlbəttə, bu dünyanın özü kimi, insan da əbədi deyildir. Vaxtı-vədəsi gələndə dünyasını dəyişəcək. Naxçıvaniyə görə, cənnət və cəhənnəm yaradılmışdır. Bu anda mövcuddur. İçində olanlarla birlikdə əbədi olaraq yox olmayacaq. Cənnət əhlinə hurilər, köşklər, müxtəlif meyvələr, çaylar, ağaclar, müxtəlif

yemək və içkilər veriləcək. Cəhənnəm əhlinə isə zəqqum yeməyi, qaynar su, zəhərlər, atəşdən kəndirlər nəsib olacaq. Bu dünya həyatı keçicidir, boş və dəyərsizdir. Bura axirət həyatına bir keçiddir. Odur ki,"Axirət yolçuluğuna hazır ol və bu yolçuluğun azuqəsini əcəl yetişmədən öncə hazırla" (5, 58). Beləliklə, apardığımız təhlillər göstərir ki, əsərdə islamın əksər prinsipləri öz təhlilini tapmışdır.

**Nəticə**

*Tədqiqatçı daha çox türkdilli mənbələrə müraciət etsə də, Baba Nemətullah Naxçıvaninin dini-fəlsəfi görüşlərini açıqlamağı bacarmışdır. Bu açıqlamaların dünya, o cümlədən, Şərq filosoflarının fikirləri ilə qarşılıqlı-müqayisəli şərhi əsərin dəyərini bir qədər də artırmış olur. Nəticədə onu söyləmək olar ki, Azərbaycanın ümümi tarixi və mədəniyyətinin tədqiqinə xidmət edən bu araşdırmaların əhəmiyyəti təkcə onların elmi dəyərində deyil, həm də etnosiyasi vəzifələrindədir. Çünki ədəbiyyat, tarix və mədəniyyət Azərbaycan xalqı da daxil olmaqla hər bir xalqın etnik şüuru, onun özünüdərk və özünütəsdiqinin intellekt və humanizminə söykənən təməlidir. Bu baxımdan, S.İbrahimovun tədqiqatına əsasən, müəyyən olunmuşdur ki, haqqında danışdığımız alimin əsərləri kitabxana və saraylarda böyük sayğı ilə mühafizə olunduğu kimi adına da böyük ehtiram vardır. Belə ki, Ağşəhərdə onun adına İmam-Natiq Məktəbi fəaliyyət göstərir, küçələrdən biri onun adınadır. Övliya kimi məzarına ehtiram vardır. Məscidlərdən birinin Baba Nemətullah Naxçıvaninin adını daşıması da qürurvericidir.*

**Ədəbiyyat siyahısı:**

1. Azərbaycan ədəbiyyatı tarixi. Azərbaycan CCR Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutu .Üç cilddə, I cild (Ən qədim dövrdən XVIII əsrin sonuna qədər). Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı. 1960, 590 s.
2. Azərbaycan tarixi. AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu. Yeddi cilddə, Üçüncü cild. Bakı: Elm, 1999, 300 s.
3. İbrahimov S. Baba Nermətullah Naxçıvani və fəlsəfi görüşləri. Dövlət və din (ictimai fikir toplusu) № 01 (54), yanvar-fevral. Bakı: Elm və təhsil, 2018, s. 101-109.
4. İbrahimov S. Baba Nemətullah Naxçıvaninin yaradıcılıq görüşlərində filosof və kəlamçıların fikirlərinə tənqidi yanaşma səbəbləri. AMEA Naxçıvan Bölməsi, İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix seriyası) Cild 8, №1 (27). Naxçıvan: Tusi, 2018, s.51-55.
5. İbrahimov S. XV əsrin görkəmli təsəvvüf və təfsir alimi Baba Nemətullah Naxçıvani. NDU, Elmi əsərlər (humanitar elmlər seriyası ), Qeyrət, 2018, s. 66-69.
6. İbrahimov S. Baba Nemətullah Naxçıvaninin Türkiyə kitabxanalarında saxlanılan əlyazma əsərləri. AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu. Azərbaycan əlyazmaları dünya kitabxanalarında" mövzusunda III Beynəlxalq elmi-nəzəri konfransın materialları. Bakı: Elm və təhsil, 13 iyun, 2018, s. 71-71.
7. Yşar Kurt. Nemətullah bin Mahmud ən-Naxçıvani. İslam Ansiklopedisi Türkiye Diyanet Vakfi. 33-cü cild. Səh 132-133. 589 s.

**Закия Абилова**

**Нематулла Нахчывани в исследованиях Сабухи Ибрагимова**

В статье говорится о исследованиях доктора философии по философии Сабухи Ибрагимова связанных с жизнью и научным творчеством выдающегося представителя XV века Баба Нематулла Нахчывани. Долгое время работающий в этой сфере С. Ибрагимов, определив рукописные экземпляры произведений учёного представил их

научному миру. Он также в сравнительной форме исследовал религиозно-философские взгляды Нахчывани.

***Ключевые слова:*** *Нематулла Нахчывани, личность, мистика, комментарий, династия, рукопись.*

**Zekiyye Abilova**

**Nematullah Nakhcivanı on the researchs of Sabuhı İbrahimov**

This article refers philosophy doctor on philosophy Sabuhi Ibrahimov's reserchs on Baba Nematullah Nakhchivani's life and scientific activity who was the genius person of fifteenth century. Sabuhi Ibrahimov who has been worked on this field for a long time represented the scientist's copies of manuscript to the science world after defining them. He, also, achieved to research the religious-philosophical opinions of Nakhchivani comparatively

***Key words:*** *Nematullah Nakhchivani, sufism, interpretation, dynasty, manuscript, personage.*

Redaksiyaya daxilolma tarixi: 10.06.2020
Çapa qəbul olunma tarixi: 17.06.2020

Filologiya üzrə elmlər doktoru, dosent
**Nəsib Göyüşov** tərəfindən çapa tövsiyə olunmuşdur.